

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 39 (23.201)

23 fevral 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib

Muxtar respublikanın iqlim şəraiti alternativ və bərpaolunan enerjidən istifadə üçün geniş imkanlar açır. Müasir energetika infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasında bu amil əsas götürülür, günəş elektrik stansiyaları tikilərək istifadəyə verilir. Hazırda Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir.



Fevralın 22-də Kəngərli rayonunun Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev çıxış edərək demişdir ki, muxtar respublikanın elektroenergetika sektoru davamlı inkişaf mərhələsindədir. Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə də mühüm əhəmiyyətə malikdir. Kəngərli rayonu ərazisində 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının qurulması bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Namiq Paşayev göstərilən qayğıya görə muxtar respublika energetikləri adından minnətdarlıq etmişdir.





İsveçrənin "Pure Energy Development" SARL Şirkətinin icraçı direktoru Mişel Kalerami çıxış edərək demişdir: "Bu gün Naxçıvan Muxtar Respublikası regionda enerji sahəsində lider mövqedədir. Xüsusilə muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə olunur. Bu işdə qarşılıqlı əməkdaşlıqdan "Pure Energy Development" SARL Şirkətinin kollektivi böyük məmnunluq duyur. Naxçıvan Muxtar Respublikasının qəlbimdə dərin yeri vardır. Gələcəkdə də muxtar respublika ilə əməkdaşlığı davam etdirəcəyik. Günəş elektrik stansiyasının qurulmasında göstərilən dəstəyə və səmərəli əməkdaşlığa görə minnətdarlıq edirik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması sahəsində həyata keçirilən tədbirlər Azərbaycanda elektroenergetika sahəsində qəbul olunan dövlət proqramlarının icrası və yeni elektrik stansiyalarının tikilməsi sahəsində görülən işlərin tərkib hissəsidir. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilib. Ucuz enerji istehsal edən sahələrə üstünlük verməklə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin gəlirlərini artırmaq və bu sahəni daha da müasirləşdirmək qarşıda duran əsas vəzifədir.



Qeyd olunmuşdur ki, muxtar respublikada elektrik stansiyaları qurularkən yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Çünki inkişaf edən dünyada yeni texnologiyaların tətbiqi və bu sahə üzrə mütəxəssislərin hazırlanması mühüm şərtdir. Muxtar respublikada da bu amil əsas götürülür. Ona görə də yeni texnologiyalar tətbiq olunmaqla yanaşı, həm də onları idarə edəcək mütəxəssislər hazırlanmalıdır. Bu gün muxtar respublikada üçüncü Günəş Elektrik Stansiyası istifadəyə verilir. 20 meqavatlıq birinci Günəş Elektrik Stansiyası 2015-ci ilin dekabrında ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilmişdir. 2 meqavatlıq ikinci Günəş Elektrik Stansiyasının 2017-ci ilin sentyabr ayında açılışı olmuşdur. Bu gün isə 2 meqavatlıq Kəngərli Günəş Elektrik Stansiyası istifadəyə verilir.

Ali Məclisin Sədri bu münasibətlə istifadəçiləri və kollektivi təbrik edərək demişdir: Qurulan yeni Günəş Elektrik Stansiyası səmərəli istismar olunmalıdır. Stansiyada dünyada qəbul olunmuş son model müasir panellər quraşdırılıb. Şüşə tipli bu panellərin elektrik verilişi alüminium panellərə nisbətən daha yüksəkdir. Eyni zamanda bu panellər imkan verir ki, stansiya qurularkən daha az torpaq sahəsindən istifadə olunsun. 4,7 hektar ərazidə qurulmuş rentabelli Günəş Elektrik Stansiyası muxtar respublikamızın inkişafına, dayanıqlı elektrik enerjisi təminatına və yeni mütəxəssislərin hazırlanmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri Günəş Elektrik Stansiyasının qurulmasında əməyi olanlara, xüsusilə "Pure Energy Development" SARL Şirkətinin icraçı direktoru Mişel Kaleramiyə və şirkətin kollektivinə təşəkkürünü bildirmişdir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, yeni Günəş Elektrik Stansiyası kənd təsərrüfatı üçün yararsız ərazidə qurulub. 2 meqavat gücündəki Günəş Elektrik Stansiyasının tikintisi Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti ilə İsveçrənin "Pure Energy Development" SARL Şirkəti arasında 2018-ci ildə imzalanmış müqavilə əsasında həyata keçirilmişdir. İl ərzində 3 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək stansiyada tikinti-quraşdırma işləri qısa müddətdə və yüksək keyfiyyətlə aparılmış, 7452 "şüşə-şüşə" tipli günəş panelləri, hər birinin gücü 50 kilovat olan 41 invertor, içərisində kommutasiya aparatları və digər elektrik avadanlıqları qoyulmuş 2 ədəd 35/0,4 kilovoltluq transformator yarımstansiyası quraşdırılmış və idarəetmə binası tikilmişdir.

Stansiyada yeraltı aşağı və yüksəkgərginlikli xətlər, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilmişdir. İdarəetmə binası 35 kilovoltluq kommutasiya avadanlıqları ilə təmin edilmişdir. Yaxınlıqda yerləşən 110/35/10 kilovoltluq "Qıvraq" yarımstansiyasına qoşulmaq üçün 2 kilometr uzunluğunda 35 kilovoltluq elektrik xətti çəkilmiş, ərazi çəpərlənmiş, siqnalizasiya və videomüşahidə qurğuları ilə təmin olunmuşdur. Quraşdırılan yeni meteoroloji stansiya ərazidə hava şəraitinə, yağıntının və rütubətin miqdarına nəzarət etməyə imkan verir. Bununla da Naxçıvan Muxtar Respublikasında Günəş Elektrik stansiyalarının qoyuluş gücü 24 meqavata, illik istehsal gücü isə 36 milyon kilovat-saata çatdırılmışdır.

## Günəş panelləri ilə işləyən subartezian quyusu qazılmışdır

Kəngərli rayonunun Qabıllı kəndində günəş panelləri ilə işləyən yeni subartezian quyusu qazılmışdır.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov subartezian quyusuna baxmışdır.

Məlumat verilmişdir ki, 60 metr dərinliyi olan subartezian quyusunun günlük su verimi 8,5 tondur. Su nasosunun elektrik təminatı quraşdırılan 2 günəş paneli vasitəsilə həyata keçirilir. Bu da Günəş Elektrik Stansiyasının yaxınlığında salınmış badam bağının və yaşıllıq zolağının su təminatının ödənilməsinə imkan verəcəkdir.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov Günəş Elektrik Stansiyasının

Ardı 2-ci səhifədə





və subartezian quyusunun istifadəyə verilməsinə görə rayon ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri qurulanlardan səmərəli istifadə olunması, yaşıllıqların artırılması, subartezian quyularının elektrik təminatında günəş panellərindən istifadə imkanlarının araşdırılması və tətbiqi barədə tapşırıqlar vermişdir.

## Qıvraq qəsəbəsində yeni istirahət parkı salınır



2004-cü ildə yaradılan Kəngərli rayonu ötən 15 ildə böyük inkişaf yolu keçmişdir. Rayon mərkəzi Qıvraq qəsəbəsində və bütün kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri aparılmışdır. Tikilən yeni sosial obyektlər, müasir inzibati və yaşayış binaları ilə yanaşı, rayon əhalisinin asudə vaxtının mənalı təşkili də diqqətdə saxlanılır, yeni istirahət parkları salınır.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qıvraq qəsəbəsində tikilən yeni istirahət parkına baxmışdır.

Məlumat verilmişdir ki, 3 min 500 kvadratmetr sahəni əhatə edən parkda torpaq işləri aparılmış, 1500 həmişəyaşıl ağac əkilmişdir. Parkın su təminatı yaxınlıqda bərpa olunan kəhriz vasitəsilə həyata keçiriləcəkdir.

Ali Məclisin Sədri parkda sakinlərin istirahəti üçün lazımi şəraitin yaradılması barədə müvafiq tapşırıqlar vermişdir.



## Kəngərli rayonunun Yurdçu kəndində qapalı suvarma şəbəkəsi qurulur





Muxtar respublikada meliorasiya və irriqasiya tədbirlərinin əhatə dairəsinin genişlənməsi torpaqlardan səmərəli istifadəyə imkan verir. Son illər qurulan qapalı suvarma şəbəkələri yeni torpaq sahələrini əkin dövriyyəsinə qatmışdır. Hazırda Kəngərli rayonunun Yurdçu kəndi ərazisində qapalı suvarma şəbəkəsi qurulur.

Fevralın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin tikintisi ilə maraqlanmışdır.

Bildirilmişdir ki, qapalı suvarma şəbəkəsi 56 hektar ərazini əhatə edir. Ərazidə min metrlik ana xəttin tikintisi başa çatdırılmışdır. Burada uzunluğu 5200 metr olan paylayıcı suvarma şəbəkəsi çəkiləcək və 56 hidrant qoyulacaqdır. Arpaçay sol sahil kanalından qidalanan "Qıvraq-1" nasos stansiyası vasitəsilə su ərazidəki hovuza vurulacaq və özaxımı ilə şəbəkəyə paylanacaqdır.

Ali Məclisin Sədri yaxınlıqdakı 40 hektardan artıq ərazinin də layihələndirilməsi və qapalı suvarma şəbəkəsinin qurulması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada istehsal olunan məhsullar "Gulfood – 2019" sərgisində maraqla qarşılanıb




*17-21 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində "Gulfood – 2019" beynəlxalq qida sərgisi keçirilib.*

Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə qida sənayesi sahəsində fəaliyyət göstərən 21 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdiriblər.

Naxçıvan şirkətləri də növbəti dəfə vahid ölkə stendi ilə "Gulfood – 2019" beynəlxalq qida sərgisində təmsil olunub. Sərgidə muxtar respublikada fəaliyyət göstərən "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin unlu-qənnadı məmulatlarını, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin brend məhsullarından olan "Sirab" mineral suyunu nümayiş etdirib. Azərbaycan pavilyonunda nümayiş etdirilən yerli məhsullarımız ziyarətçilərin və mütəxəssislərin böyük marağına səbəb olub.

Qeyd edək ki, Körfəz hövzəsində və Yaxın Şərqdə ən böyük sərgilərdən olan "Gulfood" qida məhsulları sərgisinə bu il 120 ölkədən 5 mindən artıq yerli, regional və beynəlxalq şirkət qatılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## *"Daşınar əmlakın yüklülüyünün dövlət reyestri"* mövzusunda tədbir

*"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin konfrans zalında Şərur, Kəngərli və Sədərək rayonlarının sahibkarları üçün "Daşınar əmlakın yüklülüyünün dövlət reyestri" mövzusunda maarifləndirici tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Tapdıq Əliyev açaraq bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə 12 ədəd strateji yol xəritəsi təsdiq edilib. Bu xəritə üzrə daşınar əmlakın yüklülüyünə dair qanunvericilik təkmilləşdirilib və daşınar əmlakın yüklülüyünün dövlət reyestri yaradılıb.

Tədbirdə çıxış edən idarənin əməkdaşı Elşən Cəfərli daşınar əmlakın yüklülüyünün qanunvericiliyi, dünya təcrübəsində yeri və rolu, iş mexanizmi, bildirişlərin növü, ümumi interfeys, qeydiyyat prosesi, yüklülük predmeti, reyestrin faydaları və digər məsələlər barədə sahibkarlara ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**✍ Nail ƏSGƏROV**

## Muxtar respublikada gömrük orqanlarının fəaliyyəti müasir tələblər səviyyəsində qurulub

*Ulu öndər Heydər Əliyev Naxçıvanda Ali Məclisin Sədri işlədiyi dövrdə muxtar respublikanın iqtisadi maraqlarının və mənafelərinin qorunması, gömrük xidmətinin formalaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirib. Həmin illərdə İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri ilə nəqliyyat əlaqəsinin qurulması, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələrinin yaradılması blokadada olan Naxçıvanın böhranlı vəziyyətdən çıxarılmasında, gömrük və ticarət əlaqələrinin inkişafında mühüm rol oynayıb. Əlverişli coğrafi mövqedə yerləşən Naxçıvanda səmərəli xarici iqtisadi fəaliyyətin təşkili, idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin təmin edilməsi məqsədilə atılmış ən mühüm addımlardan biri də gömrük orqanlarının vahid mərkəzdən idarə edilməsinin təşkili olub.* ***"Gömrük orqanlarının, gömrük xidmətinin dövlətin iqtisadiyyatında, ümumiyyətlə, dövlətçilikdə çox böyük rolu vardır"****, – deyən ümummilli liderimiz Heydər Əliyevin 1992-ci il 24 fevral tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi yaradılmışdır.*



Ulu öndərin ölkəmizə rəhbərliyi dövründə gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi fəaliyyətin hərtərəfli təşkilinə səbəb olmuş, gömrük orqanları mühüm təşkilatlanma və inkişaf yolu keçmişdir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən dahi rəhbərin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, gömrük sistemi də ilbəil təkmilləşir, bu sahəyə dövlət qayğısı artır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər öz bəhrəsini verib. Ötən dövrdə muxtar respublika gömrük sistemi böyük inkişaf yolu keçib, qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici əlaqələrin əhatə dairəsi xeyli genişlənib. Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq status verilib, Sədərək və Culfa gömrük sərhəd-buraxılış məntəqələrinin iş rejimi 24 saata çatdırılıb. Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin ötən ilin may ayından fasiləsiz olaraq fəaliyyət göstərməsi Naxçıvan Muxtar Respublikasından Azərbaycan Respublikasının digər bölgələrinə və əks-istiqamətdə yük və minik maşınlarının, o cümlədən avtobus reyslərinin müntəzəm hərəkətinə şərait yaradıb. Bu ilin yanvar ayında isə Şahtaxtı-Poldəşt gömrük sərhəd-buraxılış məntəqəsinin iş saatı əlavə 4 saat artırılaraq 16 saata çatdırılıb.

Dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə muxtar respublika gömrük sistemində müasir infrastruktur və möhkəm maddi-texniki baza formalaşdırılıb. 2007-ci ildə Culfa, 2009-cu ildə Şahtaxtı, 2012-ci ildə isə Naxçıvan Şəhər Gömrük idarələri üçün müasir gömrük kompleksləri, 2014-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün yeni inzibati bina, 2015-ci ildə "Naxçıvanterminalkompleks" Birliyi üçün inzibati bina və anbar kompleksinin istifadəyə verilməsi, eləcə də gömrük laboratoriyasının yaradılması xidmətin müasir tələblər səviyyəsində qurulmasına səbəb olub. 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin inzibati binası əsaslı şəkildə təmir edilib. Sədərək gömrük sərhəd-buraxılış məntəqəsi üçün 18 hektara yaxın ərazidə beynəlxalq standartlara uyğun inşa olunan müasir kompleksin tikinti işləri yekunlaşdırılıb.

Son illər muxtar respublikamızda gömrük işinin daha səmərəli və müasir standartlara uyğun şəkildə təşkili istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun inkişaf etmiş dünya ölkələrinin praktikasına uyğun şəkildə yenidən formalaşdırılması gömrük xidmətinin keyfiyyətinin artmasına, əməkdaşlardan daha səmərəli istifadəyə imkan yaradır. Culfa, Şahtaxtı və Sədərək gömrük sərhəd-buraxılış məntəqələrində quraşdırılan rentgen-nəzarət qurğuları muxtar respublikaya bütün istiqamətlərdən gələn yüklərə və yük nəqliyyat vasitələrinə gömrük nəzarətini daha dolğun və sürətli şəkildə həyata keçirməyə imkan verir. Qeyd edək ki, Almaniya istehsalı olan həmin yoxlama-baxış qurğuları dünyanın inkişaf etmiş ölkələrinin gömrük sistemində tətbiq olunan ən müasir müayinə sistemidir.

Komitənin "Hədəf mərkəzi"ndə muxtar respublika ərazisində malların və nəqliyyat vasitələrinin hərəkətinin izlənilməsi, gömrük orqanlarında quraşdırılmış müasirtipli müşahidə kameralarının imkanlarından istifadə olunmaqla iş prosesinə 24 saat nəzarət edilməsi, gömrük əməliyyatlarının monitorinqinin aparılması və riskin idarə olunması sistemi əsasında effektiv gömrük nəzarəti həyata keçirilir. Gömrük sərhəd-buraxılış məntəqələrindən muxtar respublika ərazisinə idxal və ya tranzit rejimində daxil olan yüklü nəqliyyat vasitələri xüsusi mexaniki kilidlə – GPS sistemi ilə təmin olunur, müəyyən edilmiş marşrut üzrə təyinat gömrük orqanına vaxtlı-vaxtında çatdırılma nəzarətdə saxlanılır.

Muxtar respublikada sərhədi keçən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti vahid elektron sistem vasitəsilə həyata keçirilir. Belə ki, gömrük bəyannamələri və digər mal-müşayiət sənədləri gömrük orqanlarına elektron imza ilə təsdiq olunmaqla elektron formada təqdim edilir. Gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması, şəffaflığın təmin edilməsi, əməkdaşlığın artırılması məqsədilə informasiya texnologiyalarının tətbiqi və elektron xidmətlərin coğrafiyası ilbəil genişləndirilir. Gömrük sərhəd-buraxılış məntəqələrində tətbiq edilən "Sərhəd keçmə vaxtının ölçülməsi" sistemi sərhəd keçmədən buraxılışa qədər olan müddəti müəyyən etməyə, gömrük prosedurlarının yerinə yetirilməsini, mal və nəqliyyat vasitələrinin hərəkətini ləngidən səbəbləri aşkarlayıb aradan qaldırmağa imkan verir.

Muxtar respublikaya gətirilən malların rəsmiləşdirilməsi beynəlxalq standartlar tətbiq edilməklə "bir pəncərə" prinsipinə uyğun şəkildə həyata keçirilir. Gömrük işi sahəsində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin təkmilləşdirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması məqsədilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsində "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemləri tətbiq olunur. Xarici iqtisadi fəaliyyət iştirakçısı sənədlərini gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq tərtib və təqdim etdikdə rəsmiləşdirmə bir neçə dəqiqə ərzində başa çatdırılır.

Gömrük xidməti muxtar respublikamızın iqtisadi mənafeyini və təhlükəsizliyini etibarlı şəkildə qoruyur. Büdcə öhdəliyi hər il artıqlaması ilə yerinə yetirilir, dövlət büdcəsinin formalaşmasında gömrük orqanlarının rolu artır. Dövlət Gömrük Komitəsi, eyni zamanda hüquq-mühafizə orqanı olaraq əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi ilə qaçaqmalçılıq və digər hüquqpozma hallarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirir. Bu məqsədlə ən mütərəqqi üsullardan istifadə olunur, digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət təmin olunur. Bu sahədə görülən qabaqlayıcı tədbirlərin nəticəsi olaraq son illər hüquqpozma faktlarının aşkar olunmasında artan dinamika müşahidə edilir. 2018-ci ildə muxtar respublika üzərindən tranzit hərəkət edən iki yük nəqliyyat vasitəsindən, ümumilikdə, 207,6 kiloqram narkotik vasitə – heroin aşkarlanması texniki nəzarət vasitələrindən səmərəli istifadənin uğurlu göstəricisidir.

Gömrük orqanlarının fəaliyyətində prioritet istiqamətlərdən biri də daxili bazarın qorunmasıdır. Bu sahədə görülən işlər xaricə valyuta axınının qarşısını alır, məşğulluğu təmin edir, iqtisadiyyatın davamlı inkişafına münbit şərait yaradır. Gömrük orqanları tərəfindən yerli istehsalçıların mənafeyinin qorunması, daxili bazarda yerli istehsal məhsullarının satışının stimullaşdırılması istiqamətində görülən işlər nəinki muxtar respublikanın ərzaq təhlükəsizliyinin həllinə, o cümlədən ixrac potensialının artmasına da əlavə stimul verir. Gömrük orqanları tərəfindən xaricdən idxal istiqamətində gətirilən malların, o cümlədən qida məhsullarının keyfiyyətinə ciddi nəzarət olunur. Keyfiyyət göstəricilərinin təyini ilə bağlı məhsullardan alınan prob və nümunələrin ekspertizası həyata keçirilir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafının məntiqi nəticəsi olaraq hər il ixracın həcmi idxalı üstələyir, xarici ticarət əlaqələri genişlənir. Artıq Naxçıvan Muxtar Respublikası dünyanın 60-dan çox ölkəsi ilə ticarət əməliyyatları aparır. Qonşu İran və Türkiyənin gömrük xidmətləri ilə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ticarət və gömrük münasibətlərinin inkişafına öz müsbət təsirini göstərir.

Gömrük orqanları iqtisadi təhlükəsizliyi təmin etməklə yanaşı, sahibkarlığın stimullaşdırılmasına, biznes mühitinin daha da yaxşılaşmasına, muxtar respublikamızın tranzit potensialının güclənməsinə və turizmin inkişafına da öz töhfəsini verir. Bu məqsədlə biznes subyektləri ilə vaxtaşırı görüşlər keçirilir, sahibkarların rəy və təklifləri öyrənilir. Gömrük sərhəd-buraxılış məntəqələrində quraşdırılmış köşklər vasitəsilə fiziki şəxslər, o cümlədən turistlər sadələşdirilmiş elektron bəyannaməni doldurur, həmçinin gömrük qanunvericilik bazası və səyahətçilər üçün gömrük nəzarəti ilə bağlı qaydalarla tanış olurlar. Gömrük sərhəd-buraxılış məntəqələrində quraşdırılan monitorlarda Naxçıvan Muxtar Respublikasının zəngin turizm potensialı ilə bağlı videoçarxlar nümayiş etdirilir.

*Bu gün əminliklə deyə bilərik ki, gömrük işi sahəsində muxtar respublikada yaradılan hərtərəfli şərait qarşıya qoyulmuş vəzifələrin bundan sonra da uğurla icra olunmasına imkan verəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Akademik Tariyel Talıbovun 70 illik yubileyi qeyd olunub



*AMEA Naxçıvan Bölməsində Əməkdar elm xadimi, Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbovun 70 illiyinə həsr olunan yubiley tədbiri keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev Tariyel Talıbovun mənalı ömür yoluna, zəngin elmi-pedaqoji fəaliyyətinə nəzər salıb. Bildirib ki, görkəmli alim bütün ömrünü Naxçıvan Muxtar Respublikasının flora və fauna biomüxtəlifliyinə, müasir vəziyyətinə, nadir, endemik, nəsli kəsilmək təhlükəsi altında olan bitki növlərinə, onların səmərəli istifadə olunması və mühafizəsinə həsr edib.

Akademik bildirib ki, Tariyel Talıbov səmərəli fəaliyyətinə görə bir sıra mükafatlara layiq görülüb. O, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, AMEA Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilib, "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar "Yubiley qızıl medalı"na, AMEA-nın Həsən bəy Zərdabi adına mükafatına layiq görülüb, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 fevral tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif olunub.

Sonra İsmayıl Hacıyev çoxillik və səmərəli fəaliyyətinə görə Tariyel Talıbova bölmənin fəxri fərmanını təqdim edib.

Tədbirdə AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli, Saleh Məhərrəmov, Əliəddin Abbasov, Əbülfəz Quliyev və biologiya üzrə elmlər doktoru İsmayıl Məmmədov alimi 70 illik yubileyi münasibəti ilə təbrik edib onun elmi fəaliyyətindən ətraflı söhbət açıblar.

Yubilyar çıxış edərək əməyinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə alimin elmi fəaliyyətini əks etdirən videoslayd nümayiş olunub.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Əliməmməd Nuriyev: Naxçıvanda böyük infrastruktur quruculuğu həyata keçirilib



Xəbər verdiyimiz kimi, fevralın 21-də Ordubad rayonunun Azadkəndində su təchizatı sisteminin inşası layihəsi üzrə qrant müqaviləsi imzalanıb. Tədbirdə iştirak edən "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev "Şərq qapısı" qəzetinə müsahibəsində bildirib ki, həmin layihə muxtar respublikada insanların rahat yaşayışına hesablanmış genişmiqyaslı quruculuq tədbirlərinin tərkib hissəsidir.

Onun sözlərinə görə, fond muxtar respublikada həyata keçiriləcək yeni layihənin də üzərində işləyir. Artıq Yaponiya səfirliyi həmin layihəyə müsbət münasibətini bildirib.

"Naxçıvanda böyük infrastruktur quruculuğunun həyata keçirildiyinin şahidi olduq. Təkcə paytaxt Naxçıvan şəhərində deyil, rayon və kəndlərdə də böyük abadlıq və quruculuq işləri görülüb. Muxtar respublikanın bütün yaşayış məntəqələri qazlaşdırılıb, məktəb binaları yenilənib, yaşayış məntəqələrində tibb ocaqları yaradılıb, yol infrastrukturu müasir səviyyədə yenidən qurulub, yaşıllıqlar salınıb", – deyən Əliməmməd Nuriyev vurğulayıb ki, Azərbaycanda yaşıllıqların orta göstəricisi 11 faiz olsa da, bu rəqəmin Naxçıvanda 20 faizə çatması sevindirici haldır. Halbuki 1994-cü ildə Naxçıvanda, demək olar ki, ağacların çoxu kəsilmişdi. Amma bu gün biz tamam başqa bir mənzərənin şahidi oluruq. "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti bütün bunların muxtar respublikada aparılan məqsədyönlü yaşıllaşdırma tədbirlərinin məntiqi nəticəsi olduğunu vurğulayıb.

**Tural AĞAYEV**

## Muxtar respublikada şəhid ailələrinə təqaüdlər artımla ödənilib

Ölkəmizdə şəhid ailələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Bu sahədə görülən işlərin nəticəsidir ki, şəhid ailələrinin sosial müdafiəsi gücləndirilir, onlara ödənilən təqaüd və müavinətlərin məbləği ilbəil artırılır. Həyata keçirilən tədbirlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında 2019-cu il 30 yanvar tarixli Fərmanına əsasən hər bir şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən olunub. Dövlət başçısının fərmanına uyğun olaraq fevral ayından etibarən muxtar respublikada 220 şəhid ailəsinə Prezident təqaüdü artımlarla ödənilib.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına uyğun olaraq 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11000 manat birdəfəlik ödəmənin verilməsi prosesi də uğurla aparılır. Fərmanın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında ötən dövr üzrə 142 şəhidin 153 vərəsəsinin sənədləri müvafiq qaydada araşdırılıb və bu şəxslərə birdəfəlik ödəmənin verilməsi təmin olunub. Bu istiqamətdə işlər davam etdirilir.

Muxtar respublikada şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. Ötən dövrdə 39 şəhid ailəsi fərdi yaşayış evi və mənzillərlə təmin edilib. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, müalicələrinə köməklik göstərilməsi, asudə vaxtlarının və məşğulluqlarının təmin olunması da diqqət mərkəzində saxlanılır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Novruz bayramından əvvəl qeyd olunan çərşənbələr onlarla bağlı ritual və mərasimlərdən ibarətdir. Çərşənbələrin bu bayramın özəlliklərini daşıyaraq bəzi təsəvvürlərlə bağlı olduğu məlumdur. İlaxır çərşənbələrlə əlaqəli fikirlər müxtəlif mifoloji düşüncələrdən qaynaqlanır. “Novruz” sözünün izahı məlumdur: yeni gün. İlaxır çərşənbələrlə bağlı görüşlər su, torpaq, yel və od mifizmi ilə əlaqədardır.*

# İlaxır çərşənbələr etnik təfəkkürdən qaynaqlanır



***Su*** çərşənbəsi xalq arasında “sular Novruzu”, “sular bayramı”, “gözəl çərşənbə” adları ilə də tanınmaqdadır. Bu çərşənbədə Naxçıvanda müxtəlif ayin və mərasimlərin həyata keçirilməsi mütləqdir ki, onların icrası bir çox mifoloji inamların əsasını təşkil edir. Xoşagəlməz yuxuların suya danışılması, su ilə qorxunun bədəndən çıxarılması, pal-paltara, ev-eşiyə təzə su çilənməsi qədim türklərin suya tapınma inamı ilə əlaqəlidir. Bunu xalq yaradıcılığı örnəkləri də sübut edir: “Yuxuda su görmək aydınlıqdır”, “Səfərə çıxan insanın arxasınca su atarlar”, “Lal axan sudan keçməzlər”, “Suyun lal axanı, adamın yerə baxanı”, “Su səhəngi suda sınar”, “Su bir yerdə qalanda iylənər” və sair kimi nümunələrdə də suyun əski türk aləmində müqəddəs bilinən anlayışlar sırasında olduğunu göstərir.

***Torpaq***la bağlı Naxçıvanda xalq arasında müxtəlif kiçik janr nümunələri yaddaşlarda yaşamaqdadır. Qədim türkün torpağa tapınma ənənəsini özündə ehtiva edən “Torpaq qızıl quşdur, əldən buraxdın, uçar gedər”, “Torpaqla oynayan ac qalmaz”, “Torpaq ovuclayan qızıl ovuclar” kimi atalar sözləri, sözün magik qüvvəsinə inamı özündə əks etdirən “Torpağın sanı yaşayasan”, “Torpaq kimi bərəkətli olasan”, “Torpağı xəbər aparmasın” (dünyadan köçən biri haqqında danışılarkən istifadə olunur), “Xırmanından bin-bərəkət əskik olmasın” (Xırmanüstü mərasiminin qalıqlarını özündə yaşadır), “Torpağını torbalarda daşısınlar”, “Üzün torpaq kimi qara olsun”, “Torpaq gözünü tutsun” və sair kimi alqış və qarğış nümunələri torpaq çərşənbəsinin sakral mahiyyətini özündə daşıyaraq bu gün də xalq yaddaşının məhsulu kimi işlənmə aktivliyinə malikdir.

***Yel*** dünyanın yaranmasında əsas sayılan amillərdəndir. Yel nəfəsalma mexanizmi kimi təzahür edərək həyat prinsipi ilə birbaşa bağlanır. Bu obraz həyat simvolu kimi, səma qapılarını açan və örtən varlıq kimi təsəvvür edilir. Azərbaycan türklərində “Yel baba” obrazı kimi tanınan bu varlıq dünyada nə külək varsa, hamısının ixtiyarını öz əlinə alır. Türklər arasında belə bir mifoloji inam dolaşmaqdadır ki, yel yeldir, onu da əsdirən var. Naxçıvan ərazisindən toplanmış xalq yaradıcılığı örnəklərinə əsasən söyləmək olar ki, yel çərşənbəsində müxtəlif ayin və mərasimlərin icrası mütləqdir. Xalq düşüncəsində yelin müqəddəs anlam daşıması xalqımızın şifahi təfəkküründə uzun müddət başlıca mövqe daşımışdır. Naxçıvanda xalq arasında yel çərşənbəsində yel əyəsinin ayıldığına inam dolaşmaqdadır. Xalq belə deyir: “Yel çərşənbəsində yel ayılır, küləyh əsir, ağaşdar cifdənir, havanın ağırrığı sınır”; “Xırman savıran zaman Yel babanı çağırıb dəəllər ki, Yel baba, gəl atıva saman apar”. Bu inamlar qədim türklərdə yelin kult səviyyəsində olduğunu nümayiş etdirir.

Yel çərşənbəsində muxtar respublikamızın müxtəlif bölgələrində bir-birindən maraqlı ayin və rituallar icra edilməkdədir. Onların çoxunda Yel Tanrısına sitayiş əks olunur. Evlərdəki pal-tar-palazın təmiz havaya çıxarılıb tozunu təmizləmək, mövsüm zamanı taxılın biçilib xırmana yığılması ilə icra olunan “Yel baba” mərasimi Yel tanrıçılığına inamı təsdiqləyir. Naxçıvanda yel çərşənbəsi zamanı qəbirüstü ziyarətlər də təşkil olunur. Belə ki, dünyadan köçən insanların xatırlanması münasibətilə ehsanlar bişirilib paylanır, məzarlar ziyarət edilir. Həmin ildə yas düşən evin sakinləri yasdan çıxarılır. Ordubad rayonunda buna “paxır bayramı” deyilir. Belə ki, bu çərşənbəyədək qırxı çıxmayan mərhumun evinə qohum-qonşular toplaşırlar. Mərhumun ailə üzvləri ilə birgə evdə bayrama hazırlıq görürlər. Şirniyyatlar bişirilir, evin sakinlərinə qara geyimləri bayram libasları ilə əvəzləmək tövsiyə olunur. Beləliklə, həmin ailə də bayram əhval-ruhiyyəsindən kənarda qalmır.

***Od*** təbiətin dörd ünsüründən biri, əski çağlardan türkün dünyagörüşündə müqəddəs bilinən anlayışlardandır. Od çərşənbəsi Günəşə, oda, odu qoruyub saxlama inamına əsasən yaranmışdır. Qədim türk mifologiyasına görə, odu Göy Tanrı veribdir. Altay miflərinə əsasən ilk odu böyük Ülgen – Bay Ülgen yaradıb. Türk xalqlarında Umay ruhu ilə bağlı təsəvvürlər mövcuddur ki, bunlar da od ruhu ilə əlaqəlidir. Abakan tatarlarından toplanmış rəvayətə görə, od vaxtilə qoca İldırımın kiçik oğlu olub. Qoca İldırımın böyük oğlu Günəş, ortancıl oğlu Ay, kiçik oğlu isə Oddur. Odun İldırım Tanrısı tərəfindən yaradıldığı haqqında qədim mənbələrdə fikirlər mövcuddur. Şamanizmdə odun saflaşdırıcı gücünə inanılmış, ona görə də bədxah ruhların vurduğu mənfi təsirdən qorunmaq üçün onun təmizləyici gücündən istifadə edilmişdir.

Odla bağlı müxtəlif folklor örnəkləri də məlumdur: “Od yanan yerdən tüstü də çıxar”, “Od qalar köz olar, qız qalar söz olar”, “Od qalayıb oda düşmüşük” kimi atalar sözləri, “Çərşənbədə ocağı boş qoymazlar”, “Ocaqda kül titrəyəndə od xeyrə oynayar” kimi inanclar, “Ocağın bərəkətli olsun”, “Ocağın sönməsin”, “Ocağına nur çilənsin” və ya “Oda düşəsən”, “Od-ocağa həsrət qalasan” kimi alqış və qarğış nümunələri qədim türk mədəniyyətində od-ocaq anlayışı ilə bağlı arxaik düşüncəni ifadə edir. Qədim diyarımızın bəzi bölgələrindən toplanılan xalq yaradıcılığı örnəklərinə əsasən söyləmək mümkündür ki, od çərşənbəsinin xarakterik xüsusiyyətlərindən biri də həmin gün qalanmış tonqal ətrafında yallı rəqsinin icrasıdır. Məlum olduğu kimi, qədim türk ənənəsində müxtəlif ayin və mərasimlər zamanı yallı rəqsinin icrası mütləq sayılırdı. Məhz od çərşənbəsində tonqal ətrafında yallının icrası od hamisinə olan inancı nümayiş etdirir. Qeyd edək ki, qədim türk mifoloji dünyaduyumunda od hamisi Tanrının kiçik oğlu kimi qəbul edilirdi. Tonqal ətrafında yallının icrası da od hamisinə olan ənənəvi təsəvvürdən irəli gələn hörmət və ehtiramı ifadə edir.

Naxçıvanda Novruz bayramı ərəfəsində təkcə axır çərşənbə deyil, bütün ilaxır çərşənbələr zamanı axşamlar evlərin həyətində tonqallar qalanır. Müxtəlif ayin və rituallar icra olunur. Bunlardan ilaxır çərşənbə – od çərşənbəsi isə mərasim, ayin, etiqad, müxtəlif oyun və şənliklərin daha çox icra olunduğu çərşənbədir. Ordubad rayonunda Novruzun ən cox sevilən ərəfəsi – ilaxır çərşənbə, yəni od çərşənbəsi “Yeddiləvin” adlanır. “Yeddiləvin” günü süfrələrə cürbəcür nemətlər düzülür. Bu nemətlər, əsasən, 7 adda olmalıdır. Yeddiləvin axşamı tonqallar qalanır. Ən böyük tonqal dağların uca nöqtəsində yandırılır. Hamının bir-birinə bu barədə ilk sualı belə olur: “Görəsən, Bəlkədə tonqal qalanıbmı?”

***Firavan yaşayış, bolluq rəmzi kimi xarakterizə edilən, ən qədimlərdən türklərin yeni gün bayramı olan Novruz öncəsi çərşənbələrdə təbiətin dəyişməsini, ölən təbiətin yenidən dirilməsini müşahidə edən xalq baharın gəlişini böyük hadisələrdən biri kimi qarşılayır.***

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

# “Nemətullah Naxçıvani: taleyi və sənəti” kitabının təqdimatı olub






*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində “Nemətullah Naxçıvani: taleyi və sənəti” kitabının təqdimatı olub.*

Tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Emin Məmmədov açıb. Bildirilib ki, bəşər sivilizasiyasının beşiyi olan qədim Naxçıvan torpağı tarixin bütün dövrlərində dünya elminə, mədəniyyətinə, siyasətinə görkəmli simalar bəxş edib. Belə şəxsiyyətlərdən biri də Nemətullah Naxçıvanidir. Orta əsrlərdə yaşamış bu görkəmli mütəfəkkir Türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr verib, təfsir və təsəvvüf alimi kimi şöhrət qazanıb.

Diqqətə çatdırılıb ki, Nemətullah Naxçıvaninin elmi dünyagörüşünün formalaşmasına və kamilləşməsinə Naxçıvan ictimai-mədəni və elmi mühitinin mühüm təsiri olub. Şərqin böyük filosofunun elmi yaradıcılığında qədim türk sivilizasiyası ilə İslam dini dünyagörüşü vəhdət təşkil edib.

Qeyd olunub ki, görkəmli mütəfəkkir Nemətullah Naxçıvaninin yaradıcılığına həsr olunmuş kitab və qəzet materialları mərkəzdə təşkil olunmuş sərgidə nümayiş etdirilir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin baş elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin baş məsləhətçisi Bəhruz Gülmalıyevin çıxışları olub. Çıxışlarda bildirilib ki, Naxçıvan torpağının yetirməsi olan görkəmli fikir adamları obyektiv və subyektiv səbəblərdən orta əsrlər dönəmində mühacirət həyatı yaşayıblar. Nemətullah Naxçıvani də belələrindəndir. O təkcə ilahiyyat elmində deyil, həm də dünyəvi elmlərdə mahir idi.

Vurğulanıb ki, görkəmli filosofun həyat və yaradıcılığına həsr edilən “Nemətullah Naxçıvani: taleyi və sənəti” adlı yeni kitabın nəşri də muxtar respublikamızda bu istiqamətdə atılan növbəti addımlardan biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən nəşr olunan kitabda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutlarının və Əlyazmalar Fondunun elmi əməkdaşlarının Nemətullah Naxçıvaninin irsi ilə bağlı araşdırmaları yer alıb. Yeni nəşrdə öz əksini tapan 10 elmi məqalə görkəmli naxçıvanlı alimin həyat və yaradıcılıq yolunun öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir. Görkəmli filosofun əsərlərindən tərcümə olunaraq topluya yerləşdirilən hissələr kitabın elmi əhəmiyyətini daha da artırıb. Kitab “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görüb.

Sonda görkəmli mütəfəkkirin həmin kitabda özünə yer almış əsərlərindən seçmələr qiraət edilib.

**✍ Gülcamal TAHİROVA**

# Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



*Fevralın 22-də Cəlil Məmmədquluzadənin ev-muzeyində böyük yazıçının anadan olmasının 150 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, qüdrətli dramaturq və yazıçı, publisist Cəlil Məmmədquluzadə Azərbaycanın dövlət müstəqilliyi, milli istiqlal uğrunda mübarizənin ön cərgəsində durmaqla bizim müasirimiz olmuş və bundan sonra da olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 17 yanvar tarixdə “Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalaması, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə görkəmli yazıçı-publisistin yubileyinin muxtar respublikamızda keçirilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi böyük ədibə ehtiramın ifadəsidir.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyev həmişə Cəlil Məmmədquluzadə irsinə, yazıçının əsərlərinin tədqiqi və kütləvi şəkildə nəşri məsələlərinə böyük diqqət və qayğı göstərib.

Sonra Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Həşimli, dosentlər İman Cəfərli, Ramiz Qasımov çıxış ediblər.

Ədibin əsərlərindən nümunələr bədii qiraət edilib, muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

* * *

“Naxçıvan” Universitetində “Cəlil Məmmədquluzadə – 150” adlı konfrans keçirilib. Ədibin yaradıcılığını əks etdirən slaydın nümayişi ilə başlayan tədbirdə universitetin rektoru, professor İsmayıl Əliyev çıxış edərək Mirzə Cəlilin zəngin irsindən danışıb.

Konfransda Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimləri İman Cəfərli, dosentlər Qənirə Əsgərova, Nüşabə Məmmədova və filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva çıxış ediblər. Bildirilib ki, Cəlil Məmmədquluzadənin zəngin bədii irsi, onun “Molla Nəsrəddin” jurnalı Yaxın və Orta Şərqdə, xüsusilə İran və Türkiyədə ədəbi-ictimai fikrin, inqilabi-demokratik hərəkatın inkişafına qüvvətli təsir göstərmişdir.

Tədbirin bədii hissəsində Cəlil Məmmədquluzadənin “Poçt qutusu” hekayəsi əsasında tələbələr tərəfindən hazırlanmış tamaşa maraqla qarşılanmışdır.

**Nuray ƏSGƏROVA**

***İtmişdir***

Qarayev Məmməd Əmrah oğlunun adına olan evin 23/109 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 149